

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 170 (21.071)

6 sentyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 4-də Uelsdə Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistan prezidenti Serj Sarkisyanın və ABŞ dövlət katibi Con Kerrinin birgə görüşü olub.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunan acarıstanlı uşaqlar dünən vətənlərinə yola salınıblar



Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunan acarıstanlı uşaqlar müalicə kurslarını başa çatdıqdan sonra ölkələrinə geri dönüblər. Sentyabrın 5-də "Duzdağ" otelinin qarşısında qonaqları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev, Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Ruslan Süleymanov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin nümayəndələri yola salıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Gürcüstanın Acarıstan Muxtar Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələr müxtəlif sahələrdə, həmçinin səhiyyə sahəsində öz bəhrələrini verməkdədir. Artıq üçüncü ildir ki, astma xəstəliyindən əziyyət çəkən xeyli sayda acarıstanlı uşaq Naxçıvan Muxtar Respublikasının Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunur. Burada olduğunuz 12 gün müddətində müalicə olunmaqla yanaşı, Naxçıvanın gəzməli-görməli yerləri ilə də yaxından tanış olmaq imkanınız olub. Hər birinizə cansağlığı və yaxşı yol arzulayırıq.

Acarıstanlı uşaqların qrup rəhbəri Marika Xalvaşi onlara yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci ilin yanvar ayında Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfəri zamanı səhiyyə sahəsində əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb, tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların Naxçıvanın Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunması barədə təklif razılıqla qarşılanıb, ötən müddət ərzində aztəminatlı 56 acarıstanlı uşaq burada pulsuz müalicə kursu keçib.

*Culfa rayonunun quruculuq xəritəsi hərtərəfli dövlət qayğısı hesabına ildən-ilə genişlənir. Öncə onu qeyd edək ki, ötən illər ərzində rayonun müxtəlif yaşayış məntəqələrində bir sıra yeni obyektlər istifadəyə verilib. Bu da həmin məntəqələrdə olan problemləri aradan qaldırmaqla kəndlərin simasını da dəyişdirib. Quruculuq tədbirləri "Muxtariyyət ili"ndə də bölgənin bir neçə kəndində davam etdirilir. Belə yaşayış məntəqələrindən biri Bənəniyar kəndidir. Rayonun ən böyük kəndlərindən biri olan Bənəniyarda aparılan kompleks quruculuq tədbirlərinə mart ayında start verilib.*

## Bənəniyar kəndində yeni quruculuq ünvanları

Burada kənd tam orta məktəbi, uşaq musiqi məktəbi və xidmət mərkəzi üçün binalar inşa olunur, kənd mərkəzi və həkim ambulatoriyası binaları yenidən qurulur. Quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Onlara hərtərəfli şərait yaradılıb.

Məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Məlumat üçün bildirək ki, mövcud məktəb binasının 1 korpusu saxlanılıb, əlavə korpuslar inşa edilib. Yenidən qurulan məktəb binası 648 şagird yerlik nəzərdə tutulub. Təhsil ocağının yeni binasında geniş və işıqlı sinif otaqları, kitabxana, idman zalı, kompüter otağı və elektron lövhəli siniflər, laboratoriya müəllim və şagirdlərin ixtiyarına veriləcək. Yaxınlıqda inşa edilmiş musiqi məktəbinin binası da zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Hazırda binada son tamamlama işləri görülür.

Kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası da bənəniyarlılara dövlətimizin növbəti qayğısıdır.

Obyektlərin inşası başa çatdırıldıqdan sonra ərazi abadlaşdırılacaq, yaşıllıq zolaqları, gülkarlıqlar salınacaq.

## "Naxçıvan Aqrolizinq" ASC payız əkininə tam hazırdır

Muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı mövcud imkanlardan səmərəli istifadə edilməsinə, əkin dövriyyəsinin genişləndirilməsinə şərait yaradıb. Regionun mürəkkəb iqlim şəraitində əkinbiçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti (ASC) kənd təsərrüfatının müasir texnikalarla təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir, cins mal-qaranın alınaraq muxtar respublikaya gətirilməsini və lizinq yolu ilə fermerlərə verilməsini təmin edir.

Bu ilin payız mövsümündə də "Naxçıvan Aqrolizinq" ASC muxtar respublikada aparılacaq kənd təsərrüfatı işlərinə tam hazırdır. Cəmiyyətdən aldığımız məlumata görə, 190 ədədi 2014-cü ildə olmaqla, 1435 ədəd müxtəlif təyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqlar cəmiyyət tərəfindən alınaraq muxtar respublikaya gətirilib. "Naxçıvan Aqrolizinq" ASC və onun Şərur, Babək, Culfa, Sədərək, Kəngərli, Ordubad, Şahbuz rayon bazalarında icarəyə verilmiş 156 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası vardır. Gələn ilin bol məhsulu üçün bu texnikaların gücündən səmərəli istifadə ediləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına texnikanın lizinq yolu ilə satılması onlara uzunmüddətli dövrdə görüləcək işlər üçün mühüm dəstəkdir. Ümumiyyətlə isə indiyədək muxtar respublikada nağd, köçürmə və lizinq yolu ilə satılan texnika, texnoloji avadanlıqların sayı 1124 ədəd olub.

*Muxtar respublikamızda yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan dövlət siyasəti nəticəsində əhali gəlirləri artmaqdadır.*

## Yüksələn iqtisadi fəallıq əhali gəlirlərini artırıb

Aparılan təhlillər göstərir ki, bu istiqamətdə görülən tədbirlərin nəticəsində cari ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artaraq 927 milyon 951 min manata yaxın olub, onun hər bir nəfərə düşən həcmi isə 1,4 faiz yüksələrək 2125 manat təşkil edib. Əhali gəlirlərinin belə yüksələn dinamikasını təkcə cari ilin ilk altı ayının yekunları ilə müqayisə etdikdə isə 172 milyon 935 min manat artım müşahidə olunmaqdadır. Əhali gəlirlərinin dinamikasını müəyyən edən digər mühüm bir göstərici olan onun hər bir nəfərə düşən hissəsində də bu artım qorunub saxlanılıb. Belə ki, bəhs olunan dövrdə əldə olunmuş 2125 manatlıq gəlir səviyyəsi bundan bir ay əvvəlki dövrə nisbətən 394 manat çoxdur.

Qeyd edək ki, iyul ayının yekunlarına əsasən, muxtar respublikada orta aylıq əməkhaqqının məbləği 382,5 manata çatıb ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricidən 2,1 faiz çoxdur.

**Xəbərlər şöbəsi**

## Sakinlər məktəbli yarmarkasının təşkilindən razılıq edirlər

*Artıq Bilik Günü yaxınlaşır. Bu ərəfədə övladları məktəbə gedəcək valideynlərin qayğıları da artır. Əvvəllər onlar məktəbli övladları üçün geyim dəsti, dərs ləvazimatları əldə etməkdən ötrü ayrı-ayrı ünvanlara üz tuturdular. Bəzən bazarlardakı qiymətlər də münasib olmurdu. Bu cəhətdən artıq neçə ildir ki, Naxçıvan şəhərində təşkil olunan ənənəvi məktəbli yarmarkalarının böyük əhəmiyyəti var.*

Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda təşkil olunan yarmarka hər gün saat $9^{00}$-dan $14^{00}$-ə kimi əhaliyə xidmət göstərir. Yüzlərlə adamın müraciət etdiyi yarmarkada olduq. O an yadıma məktəbli olduğum illər düşdü. Yenicə müstəqillik qazanmış dövlətimizdə



o zaman bütün sahələrdə olduğu kimi, təhsilimizdə də vəziyyət acınacaqlı idi. Lazım olan dərsliklərin tapılmaması, yaxud onların bazarlarda çox baha qiymətə satılması adi hal idi. Artıq o günlər xeyli geridə qalıb. Bu mənada indi orta məktəblərdə təhsil alan şagirdlərə qibtə ilə baxmaq olar. Onlar üçün məktəbli yarmarkasında nə istəsən var. Geniş sahədə piştaxtalar üzərinə səliqə ilə düzülmüş çeşid-çeşid məktəbli ləvazimatları, nümunə üçün asılqanlardan asılmış məktəbli formaları belə deməyə əsas verir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarmarkada məktəbli ləvazimatları ilə yanaşı, test kitabları, bədii ədəbiyyat nümunələri də satışa çıxarılır. Buraya üz tutanlar təkcə Naxçıvan şəhərinin sakinləri deyildi. Muxtar respublikanın ayrı-ayrı rayonlarından, ucqar kəndlərindən də gələnlər var idi.

40-dan çox sahibkarlıq subyektinin iştirak etdiyi məktəbli yarmarkasında Naxçıvan şəhərində fəaliyyət göstərən yerli istehsal müəssisələrinin məhsulları da satışa çıxarılır. Alıcılar yarmarkanın təşkilindən razılıq edirlər. Satılan məhsulların üzərində qiymət yarlıqları da var idi.

Bu malların qiymətləri alıcıları razı salır. Bunu həmsöhbət olduğum adamlar da təsdiqlədilər. Valideyn Cahan Əsədovanın dediklərindən:

– Bir neçə ildir ki, təşkil olunan bu yarmarka valideynlərin işini xeyli yüngülləşdirib. Bu il də iki övladıma məktəbli forması və ləvazimatlar heç bir çətinlik çəkmədən buradan ala bildim.

O, belə yarmarkaların təşkil olunmasına görə dövlətimizə minnətdar olduğunu bildirdi.

Qeyd edək ki, yarmarkada müəllimlərimiz üçün də lazım olan ləvazimatlar satışa çıxarılıb. "Müəllimin proqram dəftəri"ni alan Şəhla müəllimə deyir ki, hər il özümə lazım olan bütün məktəb ləvazimatlarını bu yarmarkadan alıram. Onu da əlavə etdi ki, həm seçim imkanı çoxdur, həm də qiymətlər sərfəlidir.

Yarmarkadan razılıq edənlər təkcə alıcılar deyildi. Burada iştirak edən fiziki şəxslər də yarmarkanın təşkilindən razılıq edirlər. Onlar yaradılan şəraitdən ağızdolusu danışdılar, bu xeyirxah işin təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

Məlumat üçün qeyd edək ki, məktəbli yarmarkası sentyabrın 15-dək davam edəcək.

**Sara ƏZİMOVA**

## Gələcək nəsilləri Heydər Əliyev ideyaları ruhunda tərbiyə etmək müstəqilliyimizi qorumaq, Vətənin, xalqın işıqlı gələcəyini təmin etmək deməkdir

*“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam”.* Bu fikir ulu öndərin ülvi, müqəddəs həyat amalı, ideyaları, həyat fəaliyyətinin meyarı idi. Azərbaycan dövləti, xalqımız onun rəhbərliyi altında yüz illərlə keçə bilmədiyi inkişaf yolunu qısa zamanda qət edə bildi. Belə bir cahanşümul irsin xalqın bütün təbəqələri arasında, xüsusən yetişən nəslin ideya aləminin formalaşmasında necə bir mahiyyətə və əhəmiyyətə malik olduğu şübhəsizdir. Böyüyən nəslə ümummilli liderin Azərbaycanın bu günü və gələcəyi naminə həyata keçirdiyi siyasətin mahiyyətini daha dərindən dərk etdirməliyik.

Biz bu gün böyüməkdə olan nəsli ulu öndərin dəfələrlə ölçülüb-biçilmiş, dərk edilmiş, ətraflı düşünülmüş siyasəti sayəsində, çox əzab-əziyyətlərə qatlaşaraq, mətinlik, dönməzlik, səbirlilik nümayiş etdirərək qurduğu Azərbaycan dövlətinə sədaqət ruhunda böyütmək üçün vasitələrdən, yollardan, imkanlardan maksimum dərəcədə faydalanmalıyıq. Xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycançılıq ideyalarının gələcəyimiz olan övladlarımızın qanına, canına hopmasına, onların özlərini heç vaxt yol ayrıcında hiss etməmələrinə nail olmalıyıq. Çünki Azərbaycan dövləti üçün ümummilli lider Heydər Əliyevin böyük və əzəmətli, həmişəyaşar ideyaları möhkəm bünövrədir, qarantdır.

Ulu öndər Heydər Əliyevin ideyalarını əqidəyə çevirmək, bu ideyaları yetişən nəslin ruhuna hopdurmaq, onları əsl vətəndaş kimi yetişdirmək, ölkənin, xalqın mənafeyi uğrunda fədakar mübarizlər kimi formalaşdırmaq, müstəqillik qazanmış suveren ölkənin tələblərinə cavab verən bir səviyyəyə qaldırmaq qarşımızda duran mühüm, ümdə vəzifədir. Belə bir vəzifənin uğurlu həlli üçün bütün tərbiyə işinə, onun daxili məzmun istiqamətinə nüfuz etmək, şagirdlərin idrakına və qəlbinə Heydər Əliyev ideyaları ilə təsir göstərmək lazımdır.

“Həqiqəti dərk etməklə tərbiyə yalnız başlanmış olur”. Bu başlanğıc mərhələsinin əsası isə sistemli, ardıcıl şəkildə və pedaqoji prinsipləri gözləməklə ümumtəhsil məktəblərində qoyulur, inkişaf etdirilir. Təhsil müəssisələrində fənlərin tədrisi zamanı, müxtəlif növ tərbiyə işləri prosesində şagirdlərin ulu rəhbərin ideyaları ruhunda tərbiyə edilməsi üçün çox geniş imkanlar mövcuddur. Bu, həqiqətdir. Lakin bu həqiqətin reallığa çevrilməsi, yəni bu istiqamətdə tərbiyə işinin səmərəlilik səviyyəsi o halda mümkün ola bilər ki, şagirdlərin dahi rəhbər Heydər Əliyev nümunəsində tərbiyəsi işi xüsusi şərtlər daxilində həyata keçirilsin. Şagirdlərin ideya inamının formalaşdırılması üzrə işin müvəffəqiyyəti onun stimullaşdırılması və istiqamətləndirilməsindən asılıdır. Ümumtəhsil məktəblərində ulu öndərin həyat və fəaliyyəti nümunəsində ideya inamının formalaşdırılması işində bu deyilən cəhət həmişə diqqətdə saxlanılmalıdır.

Ümumtəhsil məktəblərində bu məsələlərin mövcud vəziyyətini şərh etməzdən əvvəl bir razılıq, fərəh gətirən cəhəti xüsusi qeyd etməliyik. Görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, ideyalarının mənimsənilməsi sahəsində işlər hələ müstəqillik dövrünün ilk illərindən təlim-tərbiyə prosesinə daxil olmağa başlamışdır. Müdrik şəxsiyyət Heydər Əliyevin həyatını və mübarizəsini daha yaxşı, daha dolğun və daha tez başa düşülən tərzdə izah etmək, aydınlaşdırmaq haqqında qabaqcıl müəllimlərin anlayış və təsəvvürlərini formalaşdırmaq səyləri diqqətəlayiqdir. Naxçıvan şəhərinin, muxtar respublikanın rayon mərkəzləri və kənd məktəblərinin bu sahədə apardığı işlər haqqında çoxlu materiallar var. Onlar ulu öndər Heydər Əliyevi xalqın qurtuluşunun yeganə təminatçısı kimi qiymətləndirir və böyük şəxsiyyətin əzəmətli simasını xilaskar kimi şagirdlərin gözü qarşısında canlandırır, təbliğ edirlər.

Hazırda yüksək inkişaf tempi ilə irəliləyən respublikamızın ümumtəhsil məktəblərində Heydər Əliyevin ideyaları ruhunda, onun həyati fədakarlığı timsalında böyüyən nəslin tərbiyəsi işində yüksək nailiyyətlər əldə edilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyev ideyalarını, işinin əzəmətini, böyüklüyünü başa düşməyin bünövrəsi, əsası ibtidai siniflərdə qoyulur. Müəllimlər bu işdə mümkün qədər daha çox sistemli və ardıcıllıqla çalışmalıdırlar. Bilmək lazımdır ki, şagirdlərin ulu öndər Heydər Əliyevin nümunəsində tərbiyəsinin ibtidai təhsil illəri üçün perspektiv planlaşdırılma praktikası gündəlik iş kimi adi hala çevrilməlidir. Məhz ibtidai siniflərdən başlayaraq yorulmaz, zəhmətkeş, valehedici dərəcədə çalışmaq qabiliyyəti olan bir dahi şəxsiyyət kimi Heydər Əliyevin obrazını təsəvvürlərdə yaratmaq lazımdır. Onun Vətən, yurd təəssübkeşliyi, xalqa, Vətənə vurğunluğu, sədaqəti haqqında bu yaşda olan uşaqlara ardıcıl və əsaslı bilik və məlumatlar vermək lazımdır. Böyük şəxsiyyətin Azərbaycançılıq, dövlətçilik uğrunda apardığı mübarizənin çətin, keşməkeşli yolunu kiçikyaşlı məktəblilərə başa düşəcəyi bir dildə mənimsətmək lazımdır.

Yekun olaraq qeyd edək ki, ümummilli liderin humanist ideyaları ibtidai sinif şagirdlərinin yaş və bilik səviyyələrinə uyğunluğu nəzərə alınmaqla öyrədilməli, bütünlükdə, dahi rəhbər Heydər Əliyevin həyat nümunəsi, siyasi-ictimai fəaliyyəti, yaradıcılığı irsi pedaqoji və metodik əsasları müəyyənləşdirilməklə müntəzəm, davamlı şəkildə, lazım olduğu səviyyədə kiçikyaşlı məktəblilərə çatdırılmalıdır.

**Lalə ALLAHVERDİYEVA**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*

## Təhsilin inkişafı istiqamətində həyata keçirilən siyasət ümummilli liderimizin əsasını qoyduğu ənənənin davamıdır

***Xalqımızın ümummilli lideri Heydər Əliyev xalq maarifinin, milli təhsilin inkişafına xüsusi diqqət yetirir və bu istiqamətdə heç nəyi əsirgəmirdi. “Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun, kasıb təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir”, – deyən ulu öndər Azərbaycanın qloballaşan dünyada layiqli yer tutması, xalqın xoş və firavan gələcəyi üçün yeniyetmə və gənclərin təhsilinə böyük önəm verirdi. Onların hərtərəfli biliyə, dünyagörüşə malik vətəndaşlar kimi yetişmələri üçün hər cür şərait yaradırdı.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikada təhsil ocaqları üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yenilənmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. O illərdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məsələnin həllinə nail olmaq məqsədilə ulu öndər Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. Həmin dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı gənc göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır.

Müstəqillik illərində də Azərbaycanda təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildən sonra təhsil sahəsində uğurlu islahatlar aparılmış, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilmiş, müasir tələblərə cavab verən təhsil ocaqları tikilib istifadəyə verilmişdir.

Ölkəmizdə Təhsil İslahatı Proqramının hazırlanması və uğurla reallaşması istiqamətində dahi rəhbərin həyata keçirdiyi tədbirlər ümummilli liderin müəyyənləşdirdiyi təhsil siyasətinin parlaq nümunəsidir. Sonrakı illərdə həmin proqrama uyğun olaraq, müstəqil Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yenilənməsi və təkmilləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində çox böyük işlər görülmüşdür. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması ilə bağlı uğurlarımızla, təhsil sahəsində beynəlxalq proqram və layihələrdə iştirakımızla haqlı olaraq fəxr edirik. Bütün bunlar, şübhəsiz ki, ulu öndərimizin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə, təhsil işçilərinə diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük səyləri sayəsində bu gün təhsil Azərbaycanın dayanıqlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir. Ölkə başçısının təhsil sahəsinə diqqəti ardıcıl və müntəzəm xarakter daşıyır. “Təhsil haqqında” Qanunun qəbul olunması, təhsil sistemində islahatların daha sürətlə davam etdirilməsi, ən mütərəqqi texnologiyaların tətbiqi, müəllimlərin əməkhaqlarının müntəzəm olaraq artırılması, onların pedaqoji biliyinin yüksəldilməsi bu sahənin inkişaf etmiş dünya ölkələrinin səviyyəsinə yüksəlməsinə imkan vermişdir.



Muxtar respublikamızda da bu istiqamətdə görülən işlər, həyata keçirilən tədbirlər hər birimizdə fəxarət hissi yaşadır. Müasir təhsil səviyyəsində inşa olunan təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır. Diqqətçəkən vacib məqamlardan biri də məktəb tikintisinin təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmamasıdır. Regionumuzun ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən, perspektivə hesablanmış yeni məktəb binaları tikilmiş və bu quruculuq prosesi bu gün də uğurla davam etdirilməkdədir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılmış, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılmış, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilmişdir.

Konkret olaraq, son 10 ildə muxtar respublikada 56 min 926 şagird yerlik 142 orta məktəb binası tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumtəhsil məktəblərinə 3500-ə yaxın kompüter dəsti verilmiş, hər 12 şagird bir kompüterlə təmin olunmuşdur. Təhsil müəssisələrindəki kompüterlərin 84 faizi internetə qoşulmuş, siniflərdə 600-ə yaxın elektron lövhə quraşdırılmışdır. Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır. Ali məktəblərə qəbul nəticəsinin təhlilindən görürük ki, yüksək bal toplayanların sayı bu il də artmışdır. Əgər 2013-cü ildə tələbə adını qazananların 312-si 500-dən yuxarı bal toplamışdısa, 2014-cü ildə 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərmişdir. Qeyd edək ki, bu il məktəbi bitirən 3993 nəfərdən 3115-i ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Əvvəlki illərin məzunları ilə birlikdə sənəd verənlərin ümumi sayı 5664 nəfər olmuşdur. Məzunlar arasında xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 174 nəfər təşkil etmişdir. Bu il ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725-i tələbə adını qazanmışdır.

Hər il yüksək bal toplayan məzunlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ənənəyə çevrilən görüşü muxtar respublikada təhsilə göstərilən böyük qayğı kimi gənclərin də məsuliyyət hissini artırır, onları ölkəmizin inkişafı naminə təhsildə böyük uğurlar qazanmağa səsləyir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri avqust ayının 11-də tələbələrlə keçirdiyi görüşdə onlara xitabən demişdir: ***“Yeni cəmiyyət quruculuğunda sizin üzərinizə mühüm vəzifələr düşür. Daim bu vəzifələri düşünməli, onun icrasına çalışmalısınız. Vəzifə, birinci növbədə, yaxşı təhsil almaqdan ibarətdir. Yaxşı təhsil almadan intellektual səviyyəni yüksəltmək, kamil mütəxəssis və əsl vətəndaş kimi yetişmək mümkün deyil. Öz üzərinizdə daim işləməli, mütaliə etməlisiniz. İnformasiya texnologiyalarının sirlərinə dərindən bələd olmalı, müasir elmi-texniki yenilikləri öyrənməlisiniz. Bu gün gəncliyin təhsildə əsas missiyası istənilən sahə üzrə mütəxəssis kimi yetişmək, Vətən üçün, xalq üçün faydalı olmaqdır. Çalışmaq lazımdır ki, verilən təhsil yalnız qazanılmış biliklə məhdudlaşmasın. Gənclər öz dünyagörüşlərini inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlidirlər. Müasir həyat insanlardan daha çox bilik və təcrübə tələb edir. Ona görə də siz təhsil almaqla yanaşı, həm də seçdiyiniz sahə üzrə yaxşı mütəxəssis kimi yetişməli, özünüzü cəmiyyət üçün hazırlamalısınız. Hansı sahədə işləməyinizdən və harada yaşamağınızdan asılı olmayaraq, daim doğma Azərbaycanımıza sədaqətli olun!”***

Muxtar respublikamızda qabaqcıl təhsil ocaqları çoxdur. Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan məktəb isə nəinki muxtar respublikada, Azərbaycanda fərqlənən təhsil ocağıdır. Önündə müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılan məktəb binası memarlıq baxımından da diqqəti çəkir.

Naxçıvan şəhərinin hüsnünə gözəllik bəxş edən bu məktəbdə sabahımızın qurub-yaradanları olacaq şagirdlər təhsil alır, elmin ilkin sirlərinə yiyələnirlər. 1206 şagird yerlik məktəbdə 57 sinif komplekti, elektron lövhəli siniflər, 57 kompüter dəsti ilə təmin olunmuş 3 kompüter otağı vardır. Qeyd edək ki, məktəbin müəllimlərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Təhsil müəssisəsində şagirdlərin ideya-siyasi tərbiyəsinə, müasir düşüncə tərzinin formalaşdırılmasına, onların milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə, vətənpərvərlik tərbiyəsinə, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda formalaşmasına xüsusi diqqət yetirilir. Bunun üçün sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Hər il əlamətdar günlərlə bağlı yaddaqalan tədbirlər keçirilir. Məqsəd isə ondan ibarətdir ki, şagirdlər intellektual səviyyədə biliklərə yiyələnməklə yanaşı, Heydər Əliyev ideyalarına, Heydər Əliyev yoluna sadiq olan vətəndaşlar kimi yetişsinlər.

Görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil almaq, burada çalışmaq məsuliyyətli olduğu kimi, bir o qədər də qürurvericidir. Həyatını öz xalqına həsr edərək milyonların qəlbində heykəlləşən ümummilli liderin davamçılarını yetişdirmək həm ciddi, həm də şərəfli vəzifədir. Məktəbin pedaqoji kollektivi bu müqəddəs vəzifənin məsuliyyətini dərindən dərk edir. Heydər Əliyev adına tam orta məktəbin ilbəil artan uğurları ulu öndərin, ölkə Prezidentinin və Ali Məclis Sədrinin qiymətli tövsiyələrinə əməl edilməklə qazanılır, yeni təhsil ənənələri yaradılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 21 avqust tarixli “Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında” Sərəncamı kollektivimizin böyük sevincinə səbəb olmaqla məsuliyyət hissimizi daha da artırır. Sərəncamın imzalanmasını pedaqoji kollektivimiz, valideynlər və şagirdlər ulu öndərə böyük ehtiramın ifadəsi kimi dəyərləndirir, fəaliyyətimizə verilən yüksək qiymət hesab edirlər.

Ulu öndərin bütün həyatı bizim gələcəyimizə işıq saçacaq dəyərli bir xəzinədir. Ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda gənclər öz vətənpərvərliyi və intellekti ilə gələcəkdə müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin inkişafında bu xəzinədən daim bəhrələnəcəklər. Heydər Əliyev adına tam orta məktəbin kollektivi də məhz belə gənclərin yetişdirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

**Namiq MƏMMƏDOV**
*Heydər Əliyev adına tam orta məktəbin direktoru*



*Tarixən bayraq, gerb və sonralar himn dövlətçilik simvolu kimi ölkələrin əsas rəmzlərini təşkil etmiş, konstitusiya və qanunlarda əks olunmuş xüsusi hüquqi normalarla dövlət atributu kimi möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikası da yarandığı vaxtdan konstitusion səviyyədə özünün atributlarına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"də, Naxçıvan SSR-in 1926-cı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci və 1978-ci il konstitusiyalarında muxtariyyətin Dövlət gerbi və Dövlət bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı və gerbi ilə yanaşı, Dövlət himni də təsbit edilmişdir.*

*Naxçıvan Muxtar Respublikası – 90*

# Naxçıvan Muxtar Respublikasının Dövlət bayraqları

Muxtariyyətin Konstitusiyası statusunda olan "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"nin 69-cu maddəsində Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının 104-cü maddəsinə istinadən muxtar respublikanın ilk Dövlət bayrağının təsviri verilmişdi: "Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin (Sovet hakimiyyətinin ilk illərində "Sosialist Sovet Respublikası" ifadəsi Azərbaycan dilinə "İctimai Şuralar Cümhuriyyəti" şəklində tərcümə olunurdu – E.C.) bayrağı yuxarı sol küncündə, bayraq ağacı yanında yaşıl sahədə qızılı hərflərlə N.İ.Ş.C. və ya Naxçıvan İctimai Şuralar Cümhuriyyəti yazılmış al qırmızı rəngli qumaşdan ibarətdir".

Əsasnamədəki bu maddəni, 1922-ci il dekabrın 30-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin yeni latın əlifbasının əski (ərəb) əlifba ilə eyni hüquqda işlədilməsi haqqında dekretini və Azərbaycan SSR-in ilk Dövlət bayrağı nümunəsini əsas götürərək Naxçıvan SSR-in ilk bayrağının aşağıdakı şəkildə olduğunu qətiyyətlə demək olar.




Azərbaycan SSR MİK-in dördüncü çağırışının 1924-cü il dekabrın 8-də keçirilən üçüncü sessiyasında Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) yeni redaksiyasını qəbul etdikdən sonra (Azərbaycan SSR Sovetlər Qurultayı tərəfindən 1925-ci il martın 14-də təsdiq edilmişdi) Naxçıvan SSR-in bayrağında dəyişiklik edilməsi barədə əlimizdə heç bir fakt yoxdur. Lakin Naxçıvan SSR-in 1926-cı ildə qəbul edilmiş Konstitusiyasının 62-ci maddəsində Naxçıvan SSR-in bayrağının dəqiq təsviri verilir: "Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı qırmızı (al) rəngli, uzunluğu eninə 2:1 nisbətində olan, yuxarı sol küncündə, ağacın yanında, bayrağın eninin 1/6 radiusunda olan oraq və çəkic olan, onun üzərində diametri bayrağın eninin 1/10-na bərabər olan, ucları sağa yönələn qızıl aypara və qızılla haşiyələnən beşguşəli ulduz olan, oraq və çəkicin sağ tərəfində yeni və köhnə türk əlifbası ilə "Naxçıvan İctimai Şuralar Cümhuriyyəti" yazılan qumaşdan ibarətdir". Bu təsvirə əsasən, 1926-cı ildən sonra Naxçıvan SSR-in Dövlət bayrağının aşağıdakı şəkildə olduğu aydın olur.




Qeyd edək ki, Azərbaycan SSR-in 1927-ci il Konstitusiyası qəbul edildikdən sonra Dövlət bayrağının üzərindəki əvvəlki "A.İ.Ş.C" abreviaturası "A.S.Ş.C" şəklində verilmiş, başqa sözlə, "İctimai" sözü "Sosialist" sözü ilə əvəz edilmişdi. Buna əsasən və Naxçıvan SSR-in Dövlət bayrağının Azərbaycan SSR-in Dövlət bayrağının nümunəsində hazırlandığına istinad edərək, Naxçıvan SSR-in 1926-cı il Konstitusiyasında təsviri verilmiş Dövlət bayrağının müvafiq abreviatura dəyişikliyi nəticəsində 1927-ci ildən sonra aşağıdakı şəkildə olduğunu söyləmək olar.




1937-ci il sentyabrın 18-də X Fövqəladə Naxçıvan MSSR Sovetlər Qurultayında qəbul edilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Konstitusiyasının 112-ci maddəsində Dövlət bayrağının təsviri aşağıdakı şəkildə verilmişdir: "Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının Dövlət bayrağı Azərbaycan SSR-in Dövlət bayrağından ibarətdir ki, bu da sol bucağında, bayraq ağacı yanında yuxarıda, qızılla oraq və çəkic çəkilmiş və Azərbaycan dilində "AzSSR" sözləri yazılmış və "AzSSR" yazısı altında kiçik hərflərlə Azərbaycan dilində "Naxçıvan ASSR" sözləri əlavə edilmiş qırmızı qumaşdan ibarətdir".




1939-cu il iyulun 11-də "Azərbaycan yazısının latın əlifbasından rus əlifbasına keçirilməsi haqqında" Azərbaycan SSR Qanunu qəbul edildi. Qanuna əsasən, 1940-cı il yanvarın 1-dən Azərbaycanda kiril (rus) əlifbasından istifadə edilirdi. Həmin qanuna uyğun olaraq, Naxçıvan MSSR-in Dövlət bayrağında da müvafiq dəyişiklik aparılmış, "AzSSR" və "Naxçıvan ASSR" sözləri kiril hərfləri ilə yazılmışdı.




1945-ci ildə Azərbaycan dilində "avtonom" sözünün "muxtar" sözü ilə əvəz edilməsindən sonra bayraqdakı "ASSR" abreviaturası bayrağın üzərində "MSSR" şəklində əks olunmuşdu.




1952-ci il oktyabrın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR-in Dövlət bayrağı haqqında Fərman verdi. Azərbaycan SSR-in 18 avqust 1953-cü il tarixli Qanunu ilə həmin bayrağın təsviri Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının (Əsas Qanununun) 152-ci maddəsinə daxil edildi. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 22 avqust 1953-cü il tarixli Fərmanı ilə Azərbaycan SSR-in Dövlət bayrağı Naxçıvan MSSR-in Dövlət bayrağı elan olundu.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 26 iyun 1956-cı il tarixli Fərmanı ilə müəyyən edildi ki, "Naxçıvan MSSR-in Dövlət bayrağında oraq və çəkic təsvirinin altında qızılı hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" yazısı vardır". 1956-cı il iyunun 30-da isə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"də muxtar respublikanın bayrağı aşağıdakı şəkildə təsvir edilmişdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı iki üfüqi şəkildə yerləşmiş rəngli zolaqdan ibarət düzbucaqlı qumaşdan ibarətdir: yuxarıdakı zolaq qırmızı rəngdə olub, bayrağın eninin 3/4 hissəsini təşkil edir, aşağıdakı göy rəngli zolaq isə bayrağın eninin 1/4 hissəsini təşkil edir, qırmızı zolağın yuxarı sol küncündə bayraq ağacı yanında qızılı oraq və çəkic vardır, oraq və çəkicin üzərində qızılı xətlə haşiyələnmiş beşguşəli ulduz yerləşir. Oraq və çəkic təsvirinin altında qızılı hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" yazısı vardır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir. Oraq və çəkic tərəfləri bayrağın eninin 1/4-nə bərabər olan kvadratın ölçüsündə təsvir olunur. Orağın iti ucu kvadratın yuxarı tərəfinin ortasına uyğun gəlir, oraq və çəkicin tutacaqları kvadratın aşağı künclərinə istiqamətlənir. Çəkicin tutacağı ilə birlikdə uzunluğu kvadratın diaqonalına bərabərdir. Beşguşəli ulduz bayrağın eninin 1/8-nə bərabər diametrdə təsvir olunur və kvadratın yuxarı hissəsi ilə kəsişir. Ulduzun, oraq və çəkicin şaquli oxunun bayraq ağacı ilə məsafəsi bayrağın eninin 1/3-nə bərabərdir. Bayrağın yuxarı tərəfindən ulduzun mərkəzinədək məsafə bayrağın eninin 1/8-nə bərabərdir".




1978-ci ildə qəbul edilmiş Naxçıvan MSSR Konstitusiyasının 160-cı maddəsində muxtar respublikanın Dövlət bayrağının aşağıdakı təsviri verilmişdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağıdır; bu bayraq iki rəngli üfüqi zolağı olan düzbucaqlı parçadan ibarətdir: qırmızı rəngli yuxarı zolaq bayrağın eninin dörddəüç hissəsini və göy rəngli aşağı zolaq dörddəbir hissəsini təşkil edir, qırmızı zolağın yuxarı sol küncündə, bayrağın ağacı yanında zərli oraq və çəkic, bunların üstündə qızıl haşiyə içərisində beşguşəli qırmızı ulduz təsvir vardır. Oraq və çəkic şəklinin altında Azərbaycan dilində qızıl hərflərlə "Naxçıvan MSSR" sözləri yazılmışdır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

1981-ci il aprelin 2-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"nin yeni redaksiyası təsdiq edildi. Yeni redaksiya 1956-cı il Əsasnaməsinin ilkin redaksiyasındakı təsviri dəyişikliklərsiz təkrar edirdi, yalnız çex bayraqşünası Pavel Foytik "Veksillologiya" ("Vexilologie") bülleteninin 1987-ci ildə dərc edilmiş 68-ci sayında göstərirdi ki, bayrağın qrafiki təsvirində "Naxçıvan MSSR" yazısı oraq və çəkic embleminin aşağısında iki sətirdə balaca şriftlərlə verilmişdi. Bayraq qumaşının arxa tərəfində yazı, oraq, çəkic və ulduz təsvir edilməmişdi.



1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin yeni tərkibdə (seçkilər 1990-cı il sentyabrın 30-da keçirilmişdi) ilk sessiyası bir sıra tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. İlk sessiyaya sədrlik edən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarla "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adından "Sovet Sosialist" sözləri çıxarıldı və muxtar respublika rəsmən "Naxçıvan Muxtar Respublikası" adlandırıldı. Digər bir qərarla muxtar respublikanın Ali Soveti həmin gündən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Nəhayət, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il noyabrın 9-da qəbul edilmiş üçrəngli, ay-ulduzlu bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edildi və həmin bayrağın Azərbaycanın Dövlət bayrağı kimi tanınması barədə Azərbaycan SSR Ali Sovetinə qanunvericilik təşəbbüsü qaydasında müraciət edildi.

Həmin sessiyada qəbul olunmuş "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarında deyilirdi:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər Dövlət rəmzi – Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in Dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.*

***Beləliklə, Naxçıvan Muxtar Respublikasının hazırkı Dövlət bayrağı muxtar respublika Konstitusiyasının 10-cu maddəsinə görə, Azərbaycan Respublikasının Dövlət bayrağıdır. Bu isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikası Ali Sovetinin isə 1991-ci il fevralın 5-də qəbul etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay və səkkiz guşəli ulduzdan ibarət bayrağıdır.***



**Elman CƏFƏRLİ**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Acarıstanlı qonaqlar Naxçıvandan xoş təəssüratlarla ayrıldılar

***Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicə alan Gürcüstanın Acarıstan Muxtar Respublikasından olan uşaqlar dünən vətənlərinə geri döndülər. Məlumat üçün deyək ki, Acarıstandan gələn qrupda 28 nəfər var idi. Onlardan 23 uşaq müalicə üçün gəlmişdi. Digər 5 nəfər isə Acarıstan Səhiyyə Nazirliyinin əməkdaşları və valideynlər idilər.***

Müalicələrinin sonuncu günü Duzdağ Fizioterapiya Mərkəzinə gedərək onlarla söhbət etdik. Müalicələrinin necə nəticə verməsi ilə maraqlandıq, onların qədim diyarımız barədə təəssüratlarını öyrəndik. Söhbətə 10 yaşlı Aleksandr Qiorqiyeviç Bajunaişvili ilə başladıq. Yaşının az olmasına baxmayaraq, fikirlərini aydın ifadə edən balaca Aleksandr Duzdağ Fizioterapiya Mərkəzində aldığı müalicənin müsbət nəticələrindən və qədim Naxçıvanın onu heyran etməsindən xeyli danışdı. O dedi:

– Mən üç il bundan əvvəl nəfəs darlığına səbəb olan astma xəstəliyinə tutulmuşam. Həkimlər və valideynlərim deyirlər ki, bizim yaşadığımız Batuminin rütubətli havası da mənim xəstəliyimə pis təsir edir. Ancaq mən Naxçıvana gələndə birinci buranın təmiz havası çox xoşuma gəldi. Burada nəfəs almaq mənim üçün vətənimə nisbətən daha asan idi.

Duzdağ Fizioterapiya Mərkəzindəki nəhəng tunelə gələndə isə daha da rahatlaşırdım. Gecələri hamımız burda bizim üçün ayrılmış yerlərdə yatırdıq. Bu yaşımadək mən heç öz doğulduğum Acarıstanda bu qədər rahat yata bilmirdim. Orada xəstəliyimin sağalması üçün çox dərman qəbul edirdim, ancaq xeyiri olmurdu. Duzdağda isə elə bil gözəgörünməz bir qüvvə mənə hər gün daha çox şəfa verirdi. İndi özümü tam sağlam hiss edirəm. Ona görə də çox sevinirəm.

Məni ən çox Naxçıvanın təbiəti heyran etdi. Buranın havası, suyu çox yaxşıdır. Bizi Batabat yaylağına aparmışdılar. Yol boyu avtomobilin pəncərəsindən ətrafı seyr etdim. Hər tərəf gözəl və səliqəli idi. Batabat isə nağıllarda oxuduğum yerlərə bənzəyirdi. Naxçıvanda hər şey çox yaxşıdır. Burada sağlamlığımıza qovuşmağımız isə bizdə sözlə ifadə edə bilməyəcəyim gözəl hisslər yaradıb.

***Aleksandrın anası Keti Camalovna Xajaliya*** söhbətimizə qoşularaq deyir:

– Uşaqlarımızın çarəsiz xəstəliyə düçar olduğunu düşünən biz valideynlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova nə qədər minnətdarlıq etsək, azdır. Bizim övladlarımızın müalicəsi üçün hər cür şərait yaradan muxtar respublika rəhbərinə dərin minnətdarlığımızı bildiririk. Bura gəldiyimiz ilk gündən bizə çox böyük diqqət göstərildi. Nümunəvi Naxçıvan qonaqpərvərliyini gördük.

Duzdağ Fizioterapiya Mərkəzində biz hər cür qayğıyla əhatə olunduq. Həkimlər uşaqların vəziyyəti ilə teztez maraqlanırdılar. Müalicənin gedişini xüsusi diqqətdə saxlayırdılar. Hər bir istəyimiz dərhal yerinə yetirilirdi. Baş həkim Ruslan Süleymanovun uşaqlarla söhbəti, onları sağalacaqlarına, daha da yaxşı olacaqlarına inandırması müalicənin yaxşı nəticələnəcəyindən xəbər verirdi.

Budur, mənim oğlum artıq sağalıb. Əvvəllər çoxsaylı dərmanlardan istifadə edirdiksə, indi heç bir dərmana ehtiyac duymuruq. Buna görə bizimlə maraqlanan hər kəsə minnətdarlıq edirəm.

Açıq-aşkar görünürdü ki, müalicəsi uğurla başa çatan uşaqların hər birinin simasında sevinc var. Onlardan 8 yaşlı ***Tamta Cabulovna Dzirkvadze*** bizə yaxınlaşdı, balaca uşaqlara xas olan ədayla kəlməni-kəlməyə calayaraq dostlarının adından minnətdarlıq edəcəyini dedi:

– Müalicə olundum. Mən də, dostlarım da sağaldıq. Anama söz vermişəm ki, buradan qayıdandan sonra xəstələnməyim. Dedim ki, Naxçıvandakı həkimlər məni sağaldıb ki, Acarıstanda xəstələnməyim, heç kəsi incitməyim. Sağaldığım üçün hər gün məktəbə gedəcəyəm, dərslərimi yaxşı oxuyacağam. Bir də burdan uzaqda olsam da, mənim sağalmağıma kömək edənlərə hər gün dua edəcəyəm...

Söhbətə qoşulan 11 yaşlı ***Tema Şavidze*** balaca Tamtanın dediklərinə əlavələr etmək istədiyini bildirdi:



– Əslində, Tamta da, mən də, digər uşaqlar da onu demək istəyirik ki, biz Naxçıvanda təkcə müalicə olunmadıq, həm də gəzdik, çox gözəl tarixi yerlərlə, təbiət mənzərələri ilə tanış olduq. Mən və digər uşaqlar Naxçıvandakı muzeyləri gəzəndə çox şey öyrəndik. Bizə ətraflı məlumat verildi. Mən tarixə maraq göstərdiyim üçün çox sevindim.

Temanı diqqətlə dinləyən valideyni ***Keti İmnadze Zaureyevna*** gülə-gülə dedi:

– Bu yaşda uşaqlar hər şeyə maraq göstərirlər. Əslində, Tema bura gəlməmişdən əvvəl başqa sahəylə maraqlanırdı. Ancaq Naxçıvandakı tarixi abidələri gəzərkən bu istiqamətdə tarixi ilə də maraqlanmağa başladı. Gördüm ki, arada bələdçimizə əlavə suallar verir. Onda anladım ki, Tema artıq tarixi öyrənməyə meyil göstərir. Mən ona haqq qazandırıram, çünki biz hər dəfə hansısa muzeyi, tarixi abidəni gəzəndə bizə Naxçıvanın tarixinə dair məlumat veriləndə heyrətə gəlirdik. Sizin torpağınızın çox qədim və maraqlı tarixi var və bunları öyrənən hər kəs daha çox məlumat almaq ehtiyacı hiss edir.

Gəzdiyimiz Möminə xatın türbəsi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xan Sarayı, Nuh Peyğəmbərin məqbərəsi, xüsusən Əshabi-Kəhf ziyarətgahı həm uşaqları, həm də bizi heyran etdi. Bizim hamımızın ümumi rəyi belədir ki, Naxçıvan sirli-sehrli, möcüzəvi bir yerdir. Mən gördüklərimə əsaslanıb deyə bilərəm ki, Naxçıvan açıq səma altında muzeydir. Onun hər daşının altında min illərin tarixi yatır.

Təkcə bizim üçün deyil, bəşəriyyət üçün digər başqa bir möcüzə isə Duzdağdır. Bura istər uşaqlar, istərsə də böyüklər üçün təbii şəfa mənbəyidir. Mən çox sevincliyəm ki, övladım məhz burada şəfa tapdı.

***Liza İmnadze*** artıq 3 ildir ki, hər il Naxçıvana gəlir, Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunur. Onun dediyinə görə, xəstəliyi çox ağırlaşdığı üçün əziyyət çəkirdi. Ancaq Duzdağda müalicə edildikdən sonra sağlamlığına qovuşub. Lizanın tam sağlamlığına qovuşması üçün həkimlər bir neçə müalicə seansının qəbul edilməsini tövsiyə ediblər. Və artıq nəticə əldə edilib:

– Mən elə bilirdim ki, sağalmayacağam. Ancaq Duzdağda müalicədən sonra möcüzəyə inandım. Mənim üçün bu möcüzə isə sağlamlığıma qovuşmağımdır. Bizim bura gəlməyimizə, burada müalicəmizin təşkil olunmasına köməyini əsirgəməyənlərə minnətdarlıq edirəm.

Mən hər il Naxçıvana gələndə burada çox yeniliklərlə qarşılaşıram. Görürəm ki, Naxçıvan ildən-ilə daha da gözəlləşir. Yeni binalar salınır, yollar və ətrafları daha da abadlaşır. Naxçıvan mənim üçün gözəl, doğma bir yerdir...

Bu məqamda ***İrema Mevludovna İmnadze*** söhbətə qoşularaq təkcə qızı Lizanın deyil, bura gələn valideynlərin və Acarıstan nümayəndələrinin də Naxçıvana heyran qaldıqlarını bildirdi:

– Naxçıvan çox böyük sürətlə inkişaf edir. Mən qızımla bərabər 3 ildir, bura gəlirəm. Lizanın dediyi kimi, hər il çox böyük, genişmiqyaslı müsbət dəyişikliklərin şahidi oluram. İnfrastrukturunuz yüksək səviyyədə qurulub. Buna görə də hesab edirəm ki, Naxçıvanda turizmin inkişafı üçün hər cür şərait var.

Naxçıvanda çox gözəl binalar var, otellər müasir tələblər səviyyəsindədir. Buna qonaqpərvərliyi də əlavə etsək, onda Naxçıvana gələn hər bir xarici ölkə vətəndaşının özünü doğma vətənindəki kimi rahat hiss etdiyini deyə bilərəm.

Təbii ki, övladı xəstə olan mənim kimi valideynlərin diqqətini daha çox Duzdağ Fizioterapiya Mərkəzi çəkir. Onu da deyim ki, mən Acarıstan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin baş mütəxəssisi işləyirəm. Yəni tibb işçisiyəm. Ona görə həm də məsələnin bu yönünə diqqət yetirirəm. Duzdağda xəstələr üçün yaradılan şərait və onların müalicəsinə göstərilən diqqət çox yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikasının rəhbəri burada belə bir möhtəşəm müalicə mərkəzini yaratmaqla, əslində, insanlığa böyük töhfə verib. Mənim dediklərim fikirləri həmkarım Marika Tursunovna da təsdiq edə bilər.

İrema İmnadze bildirdi ki, xanım Marika ilə birlikdə çalışırlar. Yəni o da Acarıstan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin baş mütəxəssisidir. ***Marika Xalvaşi*** Acarıstandan gələn qrupun rəhbəri kimi uşaqların müalicələrinin təşkilini çox yüksək qiymətləndirərək dedi:

– Hazırda Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında dostluq və əməkdaşlıq sürətlə inkişaf edir. Bu tədbir də əməkdaşlığın bir nümunəsidir.

Biz bir daha şahidi olduq ki, astma xəstəliyindən əziyyət çəkən uşaqlar Naxçıvanda müalicə aldıqdan sonra səhhətləri yaxşılaşır, dərman preparatlarından asılı vəziyyətə düşən bəzi uşaqlar artıq bu asılılıqdan xilas olurlar.

Acarıstan ilə Naxçıvan arasındakı mehriban əlaqələr gələcəkdə də bu kimi humanitar aksiyaların davam etdirilməsinə şərait yaradır. İnanıram ki, növbəti illərdə digər acarıstanlı uşaqlar da Duzdağ kimi möcüzə məkanında şəfa tapacaqlar.

Biz çox xoş təəssüratla buradan ayrılırıq. Qonaqpərvərliyinizə görə çox sağ olun.

**Söhbəti qələmə aldı:**
**Rauf ƏLİYEV**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
## 2014-2015-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir

| | İxtisasın şifri | Elm sahəsinin və ixtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | | |
| | | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | | | |
| | | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | |
| | | | | əyani | qiyabi | əyani | qiyabi | | əyani | qiyabi | əyani | qiyabi | | əyani | qiyabi | əyani | qiyabi | | əyani | qiyabi | əyani | qiyabi |
| 1. | 2108.01 | Astrofizika və ulduz astronomiyası | 1 | | 1 | | | | | | | | | | | | | | | | | |
| 2. | 2417.01 | Botanika | | | | | | 1 | | 1 | | | | | | | | | | | | |
| 3. | 3103.08 | Meyvəçilik və üzümçülük | | | | | | | | | | | | | | | | 1 | | 1 | | |
| 4. | 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | | | | | | | | | | | | | | | | 1 | | 1 | | |
| 5. | 5102.01 | Etnoqrafiya və etnologiya | | | | | | | | | | | 1 | | 1 | | | | | | | |
| 6. | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | | | | | | 1 | | 1 | | | | | | | | 1 | | 1 | | |
| 7. | 5503.02 | Vətən tarixi | 1 | | 1 | | | 1 | | 1 | | | 1 | | 1 | | | | | | | |
| 8. | 5505.02 | Arxeologiya | | | | | | | | | | | | | | | | 1 | | 1 | | |
| 9. | 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | | | | 1 | | 1 | | | | | | | |
| 10. | 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | | | | | | | | | | | 1 | | 1 | | |

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*-ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərliyinin adına);*

*-kadrların şəxsi qeydiyyat vərəqi;*

*-tərcümeyi-hal;*

*-4 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*

*-iş yerindən xasiyyətnamə;*

*-iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*-çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*-ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*

*-şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər ayrıca qovluqda müvafiq tələblərə uyğun hazırlanıb şəxsən təqdim edilməlidir. Sənədlər sentyabr ayının 30-dək saat $10^{00}$-dan $17^{00}$-dək AMEA Naxçıvan Bölməsinin əsas binasında (Təhsil və kadrlar şöbəsi, III mərtəbə) qəbul edilir.

***Ünvan: AMEA Naxçıvan Bölməsinin əsas binası, Heydər Əliyev prospekti 76***
***Təhsil və kadrlar şöbəsi, telefon: (036) 544-65-97***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində "dərzi" peşəsi üzrə kurs keçməyə dəvət edir.

Tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il sentyabr ayının 15-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış*

***Əlaqə telefonu: 545-32-33***

### *İtmişdir*

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 91, ev 10-da yaşayan Həmzəyev Elnur Sevindik oğlunun adına 18.05.2009-cu ildə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0012402 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın həkimlərindən Qasım Əliyev, Azər Məmmədov, Cəbi İsmayılov, Elman İsmayılov, Məhərrəm Tarverdiyev və Elsevər Ağaliyev iş yoldaşları Fərman və Sabir Novruzovlara, əzizləri
**QƏDİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən İsmət İmanova, Sevda Cəfərova, Malik Vəliyev, Abbas Hacıyev, Məmməd Şahverdiyev və Zamin Səfərov iş yoldaşları Fərman Novruzova, əmisi
**QƏDİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Ramazan Abbasov, Abbasəli Rəsulov, Zakir Səfərov, Nadir Əlirzayev, Arzu Əmirova və Xalidə Bağırova iş yoldaşları Fərman Novruzova, əmisi
**QƏDİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının LOR şöbəsinin kollektivi iş yoldaşları Fərman Novruzova, əmisi
**QƏDİRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 760